# Fikrət Əmirovun 100 illiyinə töhfə



**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli bəstəkar, Xalq artisti Fikrət Əmirovun yubileyi münasibətilə maraqlı konsert proqramı təqdim olunub.**

Xalq artisti Ağaverdi Paşayevin dirijorluğu ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri orkestri çıxış edib.

Xalq artistləri Yeganə Axundova (fortepiano), Teyyub Aslanov (xanəndə), Beynəlxalq müsabiqə laureatı, Prezident təqaüdçüsü Lalə İbrahimova (soprano) öz ifaları ilə tədbiri rövnəqləndiriblər .

Fikrət Əmirov yaradıcılığının şedevr nümunələri tamaşaçıların alqışları ilə qarşılanıb.

**Nəriman HƏSƏNZADƏ,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 17 noyabr.- S.17.